

## Heydər ƏLİYEV, Ümummilli Lider

# Ümumi təhsil xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir

**Bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur**

Azərbaycan Respublikasının, Azərbaycan xalqının XX əsrdə böyük nailiyyətlərindən biri də budur ki, bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur. Ümumi təhsil xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir. İndi dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, bu gün yuxarı siniflərə girən şagirdlər, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün, gələcəkdə respublikamızı inkişaf etmiş bir ölkəyə çevirmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar.